

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 214 (23.626)

9 dekabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## S.A.Sadıxovun “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsin direktoru təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Samiq Asəf oğlu Sadıxov “Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” publik hüquqi şəxsin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 dekabr 2020-ci il*

## Kəngərli rayonunda telekommunikasiya sistemi və Rabitə Evi istifadəyə verilib







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev informasiya-kommunikasiya texnologiyalarının prioritet sahə olduğunu bildirərək demişdir: ***“Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq”.***



Bu gün muxtar respublikada rabitə və yeni texnologiyaların inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yaşayış məntəqələri tamamilə telefonlaşdırılmış, müasir rabitə sistemləri qurulmuş, sürətli internetə çıxış təmin olunmuşdur. Bu tədbirlərin davamı kimi dekabrın 8-də Kəngərli rayonunda telekommunikasiya sistemi və yeni Rabitə Evi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar naziri Vüsal Sevdimalıyev çıxış edərək demişdir ki, muxtar respublikada əldə edilmiş sosial-iqtisadi inkişaf rabitə və yeni texnologiyalar sahəsini də əhatə etmişdir. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə konkret vəzifələr müəyyənləşdirilmiş, rabitə sektoruna investisiyaların cəlb edilməsi nəticəsində istismarda olan avtomat telefon stansiyaları müasir tələblərə cavab verən yeni rabitə sistemi ilə əvəz olunmuş, ən ucqar dağ kəndlərində belə, genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilmişdir. Hazırda muxtar respublikada montaj tutumu 95 min 128 abunə yerlik avtomat telefon stansiyalarından 70 min 585 abonent istifadə edir. Bunlarla yanaşı, istismar olunan 214 avtomat telefon stansiyasından 195-i və yaxud 91 faizi yeni nəsil texnologiyalara əsaslanır. 39 min 203 abonent isə genişzolaqlı internet istifadəçisidir. Bu gün muxtar respublikada kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq transavrasiya fiber-optik magistrallarına ikitərəfli çıxışı təmin edilmişdir. Fiber-optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı təmin edilmiş, bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilmişdir. Vüsal Sevdimalıyev yaradılan şəraitə görə bütün rabitə işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Kəngərli Rayon Rabitə İdarəsinin əməkdaşı Emil Qasımov rayon rabitəçiləri və sakinləri adından minnətdarlıq edərək demişdir: “Muxtar respublikada aparılan quruculuq işləri insanların həyat səviyyəsini günbəgün yaxşılaşdırır. Kollektivimiz heç vaxt bugünkü qədər müasir və rahat iş şəraiti ilə təmin olunmamışdı. Burada sakinlərə nümunəvi poçt və rabitə xidmətlərinin göstərilməsi üçün bütün şərait yaradılmışdır. İstər binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması rayonumuzda rabitənin inkişafına göstərilən qayğının bariz nümunəsidir. Artıq Kəngərli rayonunun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətlərindən istifadə edəcəklər. Bu da insan amilinə verilən dəyərin əyani sübutudur”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Kəngərli rayonunun həyatında əlamətdar gündür. Rabitə Evi üçün



yeni bina istifadəyə verilir. Kəngərli rayonu 1 qəsəbə, 10 kənddən ibarətdir. Rayonda 33 minə yaxın əhali yaşayır. Əhaliyə rabitə xidmətləri göstərmək üçün 4550-yə yaxın nömrə tutumu olan 12 avtomat telefon stansiyası quraşdırılmışdır. Bu gün əhalinin 4400-ə yaxını sabit telefon şəbəkəsindən, 2 minə yaxını isə internetdən istifadə edir. Rayonda “Naxtel”, “Azercell”, “Bakcell”, “Azerfon” mobil operatorları fəaliyyət göstərir, əhalinin bütün təbəqələri həm stasionar, həm də mobil telefon xidməti ilə təmin olunub. Bu da əhalinin dünyada və ölkədə baş verən hadisələri operativ şəkildə izləməyə, eləcə də insanların bir-biriləri ilə rahat əlaqə saxlamalarına imkan verir.

“Rabitə və poçt xidmətlərinin təşkili bölgənin ümumi inkişafının əsas göstəricilərindəndir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, əhalini poçt xidmətləri ilə təmin etmək üçün “Naxçıvanpoçt” publik hüquqi şəxsin Kəngərli rayonunda filialı və 12 bölməsi yaradılmış, müasir iş şəraiti ilə təmin olunmuşlar. Əhalinin ən çox müraciət etdiyi və ən çox tələbat duyduğu sahələrdən biri rabitə və poçt xidmətləridir. Bütün bunlar nəzərə alınaraq vaxtilə bu ərazidə rayon yaradılarkən rabitə və poçt şəbəkəsinin də qurulması işlərinə başlanılmış, bu gün yeni Rabitə Evinin istifadəyə verilməsi ilə işlər uğurla başa çatdırılmışdır. Ötən dövrdə rayonda 32-si rabitə, 20-si isə poçt bölməsində olmaqla, 52 mütəxəssis yetişmişdir. Bu sahədə mütəxəssis hazırlığı vacib məsələdir. Ona görə ki, bu gün bütün sahələrdə yeni texnologiyalar tətbiq olunur. Əgər onların qurulması, idarə edilməsi yerli mütəxəssislər tərəfindən aparılmırsa, sonrakı dövrlərdə həmin texnologiyaların istismarında müəyyən çətinliklər yaranır. Muxtar respublikada optik kabellərin çəkilməsi və birləşdirilməsi, müasir rabitə sistemlərinin qurulması, yeni texnologiyaların tətbiqi yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Bu, uğurlu nailiyyətdir və imkan verir ki, qurulanlar uzun müddət istismar olunsun. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada ən ucqar kəndlərdən şəhər mərkəzlərinə qədər hər yerdə sürətli internetə çıxış vardır.


*Ardı 2-ci səhifədə*

Ali Məclisin Sədri kollektivə fəaliyyətlərində uğurlar arzulamış, rabitə və poçt xidmətlərinin nümunəvi təşkili, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı tapşırıqlar vermişdir.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan Rabitə Evində Kəngərli Rayon Rabitə İdarəsi, "Naxtel" müştəri xidmətləri, "Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialı yerləşir. Kəngərli Rayon Rabitə İdarəsi 6, "Naxçıvanpoçt" publik hüquqi şəxsin rayon filialı isə 12 kompüterlə təchiz edilmiş, həyətdə anbar və qaraj tikilmiş, generator quraşdırılmışdır.

Ali Məclisin Sədri Kəngərli rayon telekommunikasiya sistemini işə salmışdır.

Bildirilmişdir ki, rayon ərazisində 12 avtomat telefon stansiyası quraşdırılmış və bütün yaşayış məntəqələri telefonlaşdırılmışdır. Yeni inşa olunan Rabitə Evində yerləşən 352 nömrəlik mərkəzi avtomat telefon stansiyası vasitəsilə 167 abonentə rabitə xidməti, 78 abonentə isə genişzolaqlı internet xidməti göstəriləcəkdir. Həmçinin Kəngərli rayonunda 4-cü nəsil "Naxtel" mobil operatorunun bütün yaşayış məntəqələrini əhatə edən 7 baza stansiyası, eləcə də "Azercell", "Bakcell" və "Azerfon" mobil operatorlarının baza stansiyaları mövcuddur.

"Naxçıvanpoçt" publik hüquqi şəxsin Kəngərli rayon filialı 12 poçt bölməsindən ibarətdir. Müasirtipli binalarla təmin olunmuş bütün poçt bölmələri kompüterləşdirilmiş və POS-terminallar quraşdırılmışdır. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal ödənişlərin, sığorta və üzvlük haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kreditlərin ödənilməsi, pensiya və sosial yardımların paylanması həyata keçirilir. Bundan başqa, poçt bölmələrində əhaliyə itmiş əşyaların sahibinə çatdırılması və "Naxtel" müştəri xidmətləri də göstərilir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

***İcmal***

## Vətənpərvərlik, yurd sevgisi, torpağa bağlılıq, ümummilli ideyalara sədaqət muxtar respublikada aparılan dövlət siyasətinin əsasını təşkil edir

### *Bunu ötən ayın ümumi siyasi mənzərəsi də bir daha təsdiqləyir*

*Yola saldığımız noyabr ayı 1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təsis konfransı keçirilən, ümummilli mənafelərə xidmət edən, dövlət müstəqilliyimizin əbədi bərqərar olmasının, müstəqil ölkəmizin çoxşaxəli inkişafının qarantı olan Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü ilə əlamətdardır. Ötən ay, eyni zamanda uzun illərdir ki, siyasi fəaliyyəti ilə ümumxalq rəğbəti və beynəlxalq nüfuz qazanan bu rəhbər siyasi partiyanın uğurlu, konkret hədəflərə istiqamətlənmiş qətiyyətli siyasi mübarizəsi nəticəsində Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 28 ildir, işğal altında olan ərazilərimizin müzəffər Ordumuzun hərbi qüdrəti ilə azad olunduğu, Azərbaycanın II Qarabağ müharibəsində tarixi Zəfər qazandığı, hərbi, siyasi, həm də ideoloji baxımdan müstəsna əhəmiyyət kəsb edən qələbəyə nail olduğumuz mühüm bir tarixlə də əbədiləşdi. Noyabr ayı muxtar respublikamızın da siyasi, sosial-iqtisadi həyatında mühüm əlamətdar tədbirlər, QURUCU RƏHBƏRİN insan amilinə, doğma yurdun çiçəklənməsinə, rifahına xidmət edən inkişaf və tərəqqi siyasətinin real bəhrələri ilə yaddaqalan oldu.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov noyabrın 3-də Türkiyənin Baş naziri olmuş Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür. Ali Məclisin Sədri qonaqları salamlamış və onları Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirərək demişdir: ***"Qədim tarixi köklərə malik olan dostluq və qardaşlıq münasibətlərimiz, milli liderlərimiz – Mustafa Kamal Atatürk və Heydər Əliyevin xalqlarımıza miras qoyduqları birlik və həmrəylik bu gün daha da möhkəmlənmiş, Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Hazırda hər iki ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq ikitərəfli münasibətlərimiz inkişaf etdirilir. Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Azərbaycanın Naxçıvan Muxtar Respublikasının da mühüm rolu vardır. Muxtar respublika ilə Türkiyə Respublikası arasındakı iqtisadi-ticarət, elm, təhsil, nəqliyyat, ordu quruculuğu və digər sahələrdəki əməkdaşlıq ilbəil genişlənir".***

Ali Məclisin Sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizə verdiyi hərtərəfli dəstəyə görə qardaş Türkiyə dövlətinə, rəhbərliyinə, Silahlı Qüvvələrinə hörmət və ehtiramını bildirmiş, həmçinin Türkiyənin İzmir şəhərində baş vermiş zəlzələ və insan tələfatı ilə bağlı kədərini ifadə etmiş, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına başsağlığı vermiş, yaralananlara və xəsarət alanlara şəfa diləmişdir. Binəli Yıldırım Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmiş, göstərilən səmimi münasibətə görə nümayəndə heyəti adından minnətdarlıq edərək Naxçıvan Muxtar Respublikasının Türkiyə üçün xüsusi yeri olduğunu, bu il Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında Naxçıvanla əlaqədar önəmli qərarlar qəbul edildiyini, bu qərarlardan birinin də Naxçıvana Qars üzərindən dəmir yolunun çəkilməsi ilə bağlı olduğunu xatırlatmışdır. Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmış, Binəli Yıldırım Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim etmişdir.

Görüşdən sonra mətbuata bəyanatla çıxış olmuşdur. Türkiyə Respublikasının Baş naziri olmuş Binəli Yıldırım çıxış etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxışında vurğulamışdır ki, bu gün Türkiyə dövlətinin nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasına gəlməsi ölkələrimiz arasındakı dostluq və qardaşlığın əyani ifadəsidir.

Son illərdə muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Bu da kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar açır. Noyabrın 7-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Ailə təsərrüfatı məhsulları" yarmarkası keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yarmarkada iştirak etmişdir. Ali Məclisin Sədri, ümumilikdə, 447 ailə təsərrüfatı tərəfindən 1600 çeşiddə 48 mindən çox qablaşdırılmış məhsul çıxarılan yarmarkada özünüməşğulluğa cəlb olunmuş ailə təsərrüfatlarının məhsullarına, müxtəlif stendlərə baxmış, məhsul çeşidlərinin artırılması, çaytikanı yağı istehsalına xüsusi diqqət yetirilməsi və "Yaşıl aptek"də satışının təşkil edilməsi barədə tapşırıqlar vermişdir. Muxtar respublika rəhbəri ailə təsərrüfatlarının sahibləri ilə söhbət etmiş, məhsullardan almışdır. Ali Məclisin Sədri ailə təsərrüfatlarının inkişafının mühüm əhəmiyyətə malik olduğunu bildirmiş, göstərilən qayğı nəticəsində ilbəil istehsal olunan məhsulların çeşidinin artdığını qeyd etmiş, bundan sonra da müvafiq dövlət qurumları tərəfindən ailə təsərrüfatlarına dəstək göstərilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Türkiyə Cümhuriyyətinin qurucusu, Türk dünyasının böyük siyasi lideri Mustafa Kamal Atatürkün anım günü, 30 ilədək işğal altında olan torpaqlarımızın azad olunduğu, tarixi zəfər qazandığımız bir gün – noyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Türkiyə Respublikasının Baş Ombudsmanı Şəraf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü sarsılmaz Azərbaycan-Türkiyə birliyi və çoxcəhətli tərəfdaşlığında Azərbaycanın ulu diyarı Naxçıvanın müstəsna siyasi-strateji rolunu bir daha təsdiqləmişdir. Ali Məclisin Sədri qonaqları salamlamış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində göstərdiyi qardaşlıq dəstəyinə görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana və türk xalqına hörmət və ehtiramını bildirmişdir. Ali Məclisin Sədri nümayəndə heyətinin Naxçıvana səfərinin 30 ilədək işğal altında qalmış torpaqlarımızın azad olunduğu və Azərbaycan xalqının böyük qələbə sevinci yaşadığı günə təsadüf etdiyini bildirmiş, bunu Türkiyənin bir daha Azərbaycan xalqının yanında olduğunun əyani ifadəsi kimi dəyərləndirmişdir. Ali Məclisin Sədri böyük öndər Mustafa Kamal Atatürk və ulu öndər Heydər Əliyevin – ayrı-ayrı dövrlərdə Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsində mühüm rol oynayan hər iki dahi şəxsiyyətin ölməz əməlləri ilə bu gün də yaşadıqlarını vurğulamışdır. Muxtar respublika rəhbəri Naxçıvanda ombudsman institutunun formalaşması, eləcə də bu sahədə görülən işləri diqqətə çatdırmış, çıxışını ***"Var olsun Türkiyə, var olsun Azərbaycan! Azərbaycan-Türkiyə qardaşlığına və dostluğuna eşq olsun!"*** fikirləri ilə tamamlamışdır. Şəraf Malkoç göstərilən səmimi münasibətə görə nümayəndə heyəti adından minnətdarlıq etmiş, söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını davamlı inkişaf yoluna çıxarmış, yaşayış məntəqələri müasirliyə qovuşmuşdur. Rayon kimi yaranmasından 90 il ötən, muxtar respublikanın ən qədim və böyük yaşayış məntəqəsi olan Şərur müasir görkəmi ilə seçilir. Rayonun Qarabürc kəndində aparılan quruculuq işləri həyata keçirilən tədbirlərin davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov noyabrın 11-də Qarabürc məktəbində olmuş, 120 şagird yerlik, 3 mərtəbəli yeni məktəb binasında tədrisin vəziyyəti ilə maraqlanmışdır. Məktəbdə digər müasir tədris – ilk dəfə STEAM kabinəsi yaradılmışdır. Ali Məclisin Sədri elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın birgə inteqrasiya olunduğu modern tədris metodunun tətbiqi üçün yaradılan STEAM kabinəsində şagirdlərin əl işlərinə baxmış, STEAM metodları ilə bağlı xarici ədəbiyyatların Azərbaycan dilinə tərcümə olunması, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində də STEAM kabinəsinin yaradılması ilə bağlı tapşırıqlar vermişdir. Elektron lövhəli sinifdə Naxçıvan şəhərindəki Bayraq Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında keçirilən interaktiv dərs izlənilmiş, sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur. Muxtar respublika rəhbəri məktəb kollektivini təbrik edərək demişdir ki, müəllimlərin üzərinə düşən vəzifə yaradılanlardan istifadə etməklə tədrisin səviyyəsini yüksəltmək, vətənpərvər gənclərin yetişdirilməsinə diqqəti artırmaqdır. Ali Məclisin Sədri pedaqoji kollektivə təşəkkür etmiş, nailiyyətlərin daha da artacağına və yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.



Noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Qarabürc Kənd və Xidmət mərkəzlərində görülən işlərlə də tanış olmuşdur. Ali Məclisin Sədri kənd mərkəzində kitab müzakirələrinin keçirilməsi və tibbi xidmətlərin təşkili, xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılmış xidmət mərkəzində isə ailə təsərrüfatlarında istehsal olunan məhsulların satışına üstünlük verilməsi ilə bağlı tapşırıq vermiş, sonra sakinlərlə görüş olmuş, Ali Məclisin Sədri kənddə yeni sosial obyektlərin istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmiş, işlərində uğurlar arzulamışdır.

Həmin gün muxtar respublika rəhbəri Qarabürc kənd avtomobil yolunda aparılan yenidənqurma işləri ilə də tanış olmuşdur.

Muxtar respublikada kənd təsərrüfatının inkişafı məqsədilə torpaq ehtiyatlarından düzgün istifadə olunur, meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Naxçıvanda torpaq və su ehtiyatları kompleks şəkildə əkinçiliyin inkişafına yönəldilir. Uzun müddət suvarılmayan torpaq sahələrindən bol məhsul götürülür, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılır. Son illər muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında dövlət vəsaiti hesabına 5 min hektardan artıq qapalı suvarma şəbəkələri qurularaq sakinlərin istifadəsinə verilmişdir. Noyabrın 16-da Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Muxtar respublika rəhbərinə 810 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi, həmçinin Kəngərli rayonu ərazisində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 339 hektar sahədə də yeni qapalı suvarma şəbəkəsi qurulacağı haqqında məlumat verilmişdir. Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, suvarma şəbəkəsinin tikintisinin yerli mütəxəssislər tərəfindən keyfiyyətlə aparıldığını bildirmiş, bu işdə əməyi olanlara təşəkkür etmiş, tikintidə iştirak edənləri hədiyyələrlə mükafatlandırmışdır. Sonra muxtar respublika rəhbəri qapalı suvarma şəbəkəsini işə salmış, ərazidə qoruyucu yaşıllıq zolaqlarının salınması, qapalı suvarma şəbəkələri tikilərkən kollektor və drenaj sistemlərinin qurulmasına diqqət yetirilməsi, Tivi və Külüs kəndlərində yeni qapalı suvarma şəbəkələrinin layihələrinin hazırlanması barədə tapşırıqlar vermişdir.

Əhalinin sağlamlığına göstərilən diqqət və qayğının nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında bütün səhiyyə müəssisələri müasir standartlara uyğun qurulmuş, yeni tibbi avadanlıqlarla təchiz edilmişdir. Həyata keçirilən yenidənqurma işlərindən təbii müalicə mərkəzi kimi dünyada şöhrət qazanan Duzdağ Fizioterapiya Mərkəzinə də pay düşmüş, burada müalicə turizminin inkişafı üçün hərtərəfli şərait yaradılmışdır. Noyabrın 20-də Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binası istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Muxtar respublika rəhbəri tədbirdə çıxış edərək müstəqillik dövründə Duzdağ Fizioterapiya Mərkəzinin Naxçıvan Muxtar Respublikasının rəmzinə çevrildiyini bildirmiş, istifadəyə verilən inzibati binanın səhiyyə müəssisəsinin 40 illik fəaliyyətinə verilən töhfə olduğunu vurğulayaraq kollektivin üzərinə düşən vəzifələrdən danışmış, post-epidemiya dövrünə hazırlaşmağın zəruriliyini xatırlatmışdır: ***"Əvvəllər xəstəxana ilə xəstə qəbulu bir yerdə olduğuna görə müəyyən çətinliklər yaranırdı. Artıq xəstə qəbulu və xəstəxana ayrı-ayrı binalarda yerləşir. Mərkəzdə nəyə ehtiyac varsa, onlar müəyyən olunmalı və bütün çatışmazlıqlar aradan qaldırılmalıdır. Mərkəz publik hüquqi şəxs olduğuna görə burada bütün işlər dəqiqliklə hesablanmalı, vəsaitdən qənaətlə istifadə olunmalı və fəaliyyət üçün lazım olan bütün səylər göstərilməlidir".***

Ali Məclisin Sədri bir neçə ölkədə duz şaxtaları, eləcə də süni şəkildə yaradılan şaxtaların olmasına baxmayaraq, onların Naxçıvan Duzdağı kimi təsir gücünə malik olmadığını, ona görə də bu sərvəti qorumalı, tanıtmalı və yaşatmalı olduğumuzu xatırladaraq aidiyyəti təşkilatlara mühüm tapşırıqlar vermiş, kollektivə təşəkkür etmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır. Sonra binaya baxış olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış partiyadır. Buna görə də***

*Ardı 3-cü səhifədə*

***bizim əsasımız vardır deyək ki, Yeni Azərbaycan Partiyası müstəqilliyin həyata keçirilməsinin əsas qüvvəsidir və təkcə onun qorunub saxlanmasının yox, Azərbaycanın müstəqil dövlət kimi inkişaf etməsinin təminatçısıdır".*** Ulu öndərin vaxtilə Yeni Azərbaycan Partiyasının siyasi məramını xarakterizə edən bu müdrik kəlamları illər sonra partiyanın siyasi rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün təmin edildiyi, hərbi-siyasi gücümüzün yenilməzliyinin, dövlət-xalq-ordu birliyinin nələrə qadir olduğunun bir daha öz təsdiqini tapdığı müasir dövrümüzlə də ideal səsləşir.

Noyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun sədrliyi ilə təşkilatın Siyasi Şurasının iclası keçirilmiş, "Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyəti və qarşıda duran vəzifələr" müzakirə olunmuşdur. Ali Məclisin Sədri iclası açaraq demişdir ki, ulu öndərin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə ordu quruculuğuna xüsusi diqqət yetirmiş, güclü və qüdrətli Azərbaycan Ordusu yaradılmışdır. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz İkinci Qarabağ müharibəsində ərazi bütövlüyümüzü bərpa etmiş, torpaqlarımızı işğaldan azad olunmuş, Azərbaycan düşmən üzərində böyük tarixi qələbə qazanmışdır. Ali Məclisin Sədri bu qələbənin qazanılmasında yaralanıb sağlamlığını itirənlərə şəfa diləmiş, şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Ali Məclisin Sədri iclasda məruzə edərək 1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında təsis konfransı olan Yeni Azərbaycan Partiyasının ötən dövrdə keçdiyi böyük inkişaf yolundan danışmışdır. Vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikası Yeni Azərbaycan Partiyasının proqramının həyata keçirilməsi nəticəsində yüksək inkişafa nail olunmuşdur. Makroiqtisadi göstəricilərin ilbəil artması, abadlıq-quruculuq işlərinin həcminin və miqyasının genişlənməsi, əhali rifahının yaxşılaşması ulu öndərimizin yoluna sadaqətin bəhrələridir. Bütün bunların hesabınadır ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıraları xeyli genişlənmişdir. Ali Məclisin Sədri vurğulamışdır ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı bundan sonra da muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlarda yaxından iştirak etməli, ümumi inkişafın mahiyyətinə uyğun təhlillər aparılmalı, işə yaradıcı yanaşılmalı, təkliflər verilməlidir.

Ali Məclisin Sədri hər bir siyasi təşkilatın öz gələcəyini düşünmədən siyasi fəaliyyət göstərməsinin mümkün olmadığını xatırladaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi, Heydər Əliyev adına Gənclər Birliyi, şəhər və rayon təşkilatlarının gələcək siyasi fəaliyyətlərinin əsas konsepsiyalarını diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyasını və ölkəmizi ümummilli liderin yolu ilə aparan dövlət başçısı cənab İlham Əliyevin ***"Bizim siyasətimiz Heydər Əliyev siyasətidir, Heydər Əliyevin qoyduğu yoldur. Bizim dayağımız Azərbaycan xalqıdır və iqtidarın mənbəyi xalqdır. Biz bütün təşəbbüslərdə Azərbaycan xalqının dəstəyinə arxalanırıq. Bizim ideologiyamız Azərbaycançılıq, dövlətçilik, müstəqillik ideologiyasıdır. Bu da bütün cəmiyyəti birləşdirir və biz bu yolla uğurla addımlayırıq"*** kəlamlarını xatırladaraq bu yolda partiya üzvlərinə uğurlar arzulamışdır.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi Anar İbrahimovun təşkilatın ötən dövrdəki fəaliyyəti ilə bağlı hesabatı dinlənilmiş, çıxışlardan sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının qərarı oxunmuş, Siyasi Şuranın və İdarə Heyətinin yeni tərkibi səsə qoyularaq qəbul edilmişdir. Ali Məclisin Sədri gənclərin siyasi cəhətdən düzgün formalaşdırılması barədə tapşırıqlar vermiş, Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü və qazanılan tarixi qələbə münasibətilə partiyanın muxtar respublika təşkilatının üzvlərini təbrik etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi sürətli sosial-iqtisadi inkişaf strategiyası Naxçıvanın Şərqə açılan qapısı olan Culfa rayonunu da əhatə etmişdir. Aparılan kompleks quruculuq işləri, yaradılan müasir infrastruktur, rahat iş və xidmət şəraiti yaranmasının 90 ili tamam olan Culfa rayonunda sakinlərin firavan yaşayışını təmin etmişdir. Bu il də rayonda kompleks tikinti-quruculuq işləri həyata keçirilib. Noyabrın 26-da Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni xidmət kompleksi istifadəyə verilmiş, avtomobillər təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir. Muxtar respublika rəhbərinə şöbənin ikimərtəbəli inzibati binası, 4 qaraj, ehtiyat hissələri və təsərrüfat anbarlarının yenidən qurulması, müasir maddi-texniki təchizatı haqqında məlumat verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edərək bildirmişdir ki, həyata keçirilən işlər əhalinin və dövlətin əmlakını yanğından və digər hadisələrdən vaxtında qorumağa və qarşısını almağa xidmət edir. Muxtar respublika rəhbəri Fövqəladə Hallar Nazirliyinin kollektivinə təşəkkür etmiş, onlara fəaliyyətlərində uğurlar arzulamış, yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunmasını tapşırmışdır. Sonra yeni avtomobillərə baxış olmuş, Ali Məclisin Sədri könüllü yanğınsöndürmə dəstələrinin yaradılması və kursların təşkilinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada bütün sahələr kimi, təhsil də qayğı ilə əhatə olunmuşdur. Təhsil müəssisələrində elektron təhsilin təşkili, elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin yaradılması, nümunəvi dərslərin keçilməsi, innovasiyaların tətbiqi şagirdlərin biliklərinin artırılmasında, vətənpərvərlik və milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyəsində mühüm rol oynayır. Noyabrın 26-da Culfa Rayon Təhsil Şöbəsinin yeni binası istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov açılış mərasimində çıxış etmişdir. Muxtar respublika rəhbəri inzibati binası istifadəyə verilən Culfa Rayon Təhsil Şöbəsinin 2019-2020-ci tədris ilindəki uğurlarından bəhs edərək əminliyini bildirmişdir ki, yaradılan müasir iş şəraiti imkan verəcəkdir ki, məktəblərə nəzarət daha da gücləndirilsin, tədrisin vəziyyəti yaxşı təhlil edilsin, müzakirələr aparılsın, çatışmazlıqlar aradan qaldırılsın, rayonun təhsil nailiyyətləri daha da artırılsın. Təhsil Şöbəsinin inzibati binasında 3 məktəbdənkənar təhsil müəssisəsi üçün lazımi şərait yaradıldığını, burada həm milli, həm də innovativ dərnəklərin birlikdə fəaliyyət göstərəcəyini diqqətə çatdıran muxtar respublika rəhbəri qeyd etmişdir ki, tətbiq olunan bu yeniliklərin istifadəsinə nəzarət olunmalı, tələbkarlıq artırılmalıdır.

Ali Məclisin Sədri binada yaradılan şərait və dərnəklərin fəaliyyəti ilə maraqlanmışdır. Məlumat verilmişdir ki, Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəqs, rəsm, memarlıq-dizayn, qum sənəti, xalçaçılıq, Texniki Yaradıcılıq Mərkəzində robotexnika və STEAM, mental-aritmetik, bijuteriya, ağac üzərində oyma, ağac üzərində yandırma, Turist-Diyarşünaslıq Mərkəzində isə heykəltəraşlıq, dulusçuluq, bədii tikmə və toxuculuq dərnəkləri yaradılmışdır.

Muxtar respublika rəhbəri mental-aritmetik dərnəyi üzvlərinin vətənpərvərlik mövzusunda şeirləri bədii qiraət etməklə hesablama əməliyyatı aparmalarını izləmiş, yaradılan şəraitdən istifadə etməklə təhsilin səviyyəsinin yüksəldilməsi, qarşıdakı illərdə innovativ dərnəklərin fəaliyyətinin gücləndirilməsi barədə tapşırıqlar vermişdir.

Noyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Culfa şəhərində yenidənqurmadan sonra istifadəyə verilən yaşayış binalarında görülən işlərlə tanış olmuşdur. Məlumat verilmişdir ki, 11 yaşayış binası yenidən qurulmuş, həyətləri abadlaşdırılmış, binaların ətrafındakı yollara asfalt qatı verilmişdir. Ali Məclisin Sədri yaradılanların qorunması ilə bağlı tapşırıq vermişdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Culfa rayonunun ərazisində tikilən 1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyasında görülən işlərlə maraqlanmış, ərazidə günəş panellərinin yerləşdirilməsi üçün dəmir strukturlar quraşdırılması, hazırda külək turbinlərinin bünövrəsinin qoyulması, həmçinin yarımstansiya tikilməsi barədə muxtar respublikamızın rəhbərinə məlumat verilmişdir.

Ali Məclisin Sədri görüləcək işlərin keyfiyyətli icrası ilə bağlı tapşırıqlar vermişdir.

İşğalçı Ermənistanın oktyabr ayında Azərbaycana qarşı növbəti təxribatlar məqsədilə başladığı və düşmənin biabırçı hərbi kapitulyasiyası ilə bitən 44 günlük müharibə ölkəmizin yenilməz müdafiə qüdrətini, ordumuzun yüksək döyüş qabiliyyətini nəinki mənfur düşmənlərimizə, bütün dünyaya sübut etdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Vətən müharibəsində göstərdiyi şücaət, hərbçilərimizin ərazi bütövlüyümüz uğrunda nümayiş etdirdiyi əzmkarlıq isə müzəffər hərb tariximizin qəhrəmanlıq səhifələrini təşkil edir. Prezident, Ali Baş Komandan cənab İlham Əliyev də xalqa müraciətində naxçıvanlıların İkinci Qarabağ müharibəsində fəal iştirakını xüsusi qeyd edərək demişdir: ***"...Əziz naxçıvanlılar da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".*** Vətənpərvərlik və insan amilinin dövlətimizin siyasətinin əsas prioritetləri kimi götürüldüyü muxtar respublikada Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərin müalicəsinə xüsusi diqqət yetirilir. Noyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vətən müharibəsində yaralanan və Naxçıvan Qarnizonunun Hərbi Hospitalında müalicələrini davam etdirən hərbçilərlə görüşmüş, onların səhhəti və qidalanması ilə maraqlanmış, müalicə olunan hərbçilərimizlə söhbət etmişdir. Ali Məclisin Sədri Hərbi Hospitalın kollektivi ilə görüşərək demişdir: ***"Vətən müharibəsində yaralanan hərbi qulluqçuların sağlamlıqlarının bərpası və xidmətə qaytarılması əsas məsələdir. Müalicənin effektli olmasında yüksək əhval-ruhiyyə mühüm şərtdir. Ona görə də hospitalda müalicə olunan hərbçilərlə fərdi şəkildə söhbət aparılmalı, sağalmalarına inam yaradılmalıdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin imkanlarından da istifadə olunmaqla yaralı hərbçilərin müalicələrinə köməklik göstərilməlidir".***

Ali Məclisin Sədri Hərbi Hospitalda tibbi xidmətin yaxşı səviyyədə təşkil olunmasına görə kollektivə təşəkkür etmiş, hospitalda müalicə alan əsgərlərə və yaralılara hədiyyələr paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.

Əkinçiliyin inkişafı sahəsində həyata keçirilən tədbirlər sırasında müasir yeni irriqasiya sistemlərinin qurulması mühüm əhəmiyyət daşıyır. Hər il muxtar respublikada bu istiqamətdə silsilə tədbirlər görülür. Bu tədbirlərin davamı olaraq noyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Araz çayında inşa olunacaq yeni nasos stansiyasının layihəsinə və əkin dövriyyəsinə qatılacaq yeni əraziyə baxmışdır. 2091 hektar torpaq sahəsini əkin dövriyyəsinə qatacaq, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəsində olan əkin sahələrini də su ilə təmin etməyə şərait yaradacaq nasos stansiyası haqqında məlumat verilmişdir.

Ali Məclisin Sədri çıxış edərək muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, torpaqların münbitliyinin artırılması ilə bağlı həyata keçirilən işlərdən, görüləcək meliorativ tədbirlərdən danışmış, tikinti işlərinə başlanması, ərazinin xəritəsinin hazırlanması və "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin istifadəsinə verilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Sentyabrın 27-də erməni təxribatının qarşısını almaq məqsədilə başlanılan Vətən müharibəsinin ilk günündən noyabrın 10-a – Böyük Qələbə qazanılan günədək Naxçıvan Muxtar Respublikasından olan igid oğullarımız da döyüşlərdə qəhrəmancasına mübarizə aparmışlar. Qürurverici haldır ki, onların arasında Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə yanaşı, Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kurslarını uğurla başa vuran gənclərimiz də olmuşdur. Onların bir qismi Vətən uğrunda, ərazi bütövlüyümüzün bərpası üçün öz canlarından keçərək şəhadət məqamına yüksəlmiş, böyük Qələbəni Vətən tarixinə öz qızıl qanları ilə yazmışlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaqdır. Bu qələbənin qazanılmasında bizim xalqımız birlik, həmrəylik göstərmişdir... Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq".***

Vətənə və xalqa xidmətin ən ali məqamı şəhidlikdirsə, onlara göstərilən yüksək ehtiram dövlət-xalq-ordu birliyinin parlaq təzahürüdür. Muxtar respublika rəhbəri şəhidlərə böyük ehtiram nümayiş etdirməklə də əsl vətənpərvərlik örnəyi, insan amilinə dəyərin unikal nümunəsinə çevrildi.

Noyabrın 2-də, 6-da, 13-də, 17-də,19-da, 22-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimləri olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirlərdə iştirak etmişdir. Dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri, şəhidlərin ailə üzvləri də şəhidlərimizin qarşılanma mərasimlərində iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımızın üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirilmiş, onların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açılmış, "Qurani-Kərim"dən ayələr oxunmuş, şəhid cənazələrinin önündən keçilmişdir. Şəhidlərin cənazələri doğulduqları şəhər, qəsəbə və kəndlərə yola salınmışdır.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı vermişdir.

*Ötən ay ərzində görülən işlər, müxtəlif sahələrdə əldə olunan nailiyyətlər bir daha sübut edir ki, böyük vətənpərvər, qətiyyətli, uzaqgörən və humanist muxtar respublika rəhbəri illər öncə bəyan etdiyi siyasi məramını bu gün də uğurla, fədakarlıqla gerçəkləşdirir:* ***"Bütün qüvvə və bacarığımı Naxçıvanın çiçəklənməsinə sərf edəcəyəm, ordu quruculuğu, təhsil, intellektli və vətənpərvər gəncliyin yetişdirilməsi fəaliyyətimdə üstün istiqamət olacaq".*** *Qədim və ulu diyarımızın bu müdrik siyasət işığında inkişaf yolu ilə inamla irəliləməsi hələ neçə-neçə möhtəşəm tarixi zəfərlərə imza atacağından soraq verir.*

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Özünüməşğulluq proqramı uğurla davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial müdafiəsinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq tədbirlərin icrası davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə həyata keçirilməsinə başlanılan proqramın icrası ilə əlaqədar noyabr ayında muxtar respublika üzrə, ümumilikdə, sosial qayğıya ehtiyacı olan 32 ailə müəyyənləşdirilib və 22 nəfərin hər birinə iki iribuynuzlu, 7 nəfərin hər birinə 20 xırdabuynuzlu mal-qara, 1 nəfərə döşəmə hamarlayan dəzgah, 1 nəfərə qaynaqçı avadanlığı və ləvazimatları, 1 nəfərə isə miniyerşumlayan aqreqat verilib. Qeyd edək ki, yeni aktiv verilmiş ailələrdən biri şəhid ailəsidir.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sosial qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilib, habelə sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluğunun təmin olunması istiqamətində sosial layihələrin icrasına əlverişli zəmin yaradıb.

Qeyd edək ki, verilmiş aktivlərdən səmərəli şəkildə istifadə olunmasının stimullaşdırılması məqsədilə ötən dövr ərzində təsərrüfatlarını nümunəvi şəkildə inkişaf etdirən Şərur rayon Püsyan kənd sakini Rizvan Əliyevə və Culfa rayon Əlincə kənd sakini Mahir Bağırova arpa-buğda qıran aqreqat verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Dost yolunda can qoyan... İgid olar, mərd olar... (oçerk)

***Dostluğa çox əhəmiyyət verərdi... Dostluq kəlməsinin hikmətini, əzəmətini çox uca tutardı. Deyərdi, bəxtiyar o insandır ki, ayrılmaz duyğularla bağlandığı, tapdığı sadiq dostları var. Adama arxadır, dayaqdır dost. Elə bu səbəbdən “dostum qonaq gəlir”, – deyəndə gözlərində parlayan balaca bir uşaq sevincini doğmaları dərindən hiss edərdi. Bu gün şəhidlik zirvəsindən bizi qürur və sevinclə seyr edən Vəli Quliyevin əsl dostluğundan, fədakarlığından danışıram.***



Dostluğu elə gözəl ifadə edir, həvəslə səsləndirirdi ki, dostu olmayanlar onu bircə dəfə görsəydi, mütləq dost axtarışına çıxardı. Çünki elə bir zirvəyə qoymuşdu ki, dostlarını, o zirvə çox mötəbər yerləri fəth etmək gücünə sahib idi. Onun dostum dediyi sevdiklərini sıralasaq, birinci dostu Vətən (birinci sinifdə “Əlifba” kitabında özünün seçərək əzbər dediyi “Vətən” şeiri ilə başlamışdı bu dostluq), digər dostları isə ailə və ailəsi qədər sevdiyi ən yaxın mənəvi dostları idi. Hətta dostlarının hər birini ailənin bir üzvü hesab edirdi. Dostuna elə ürəkdən bağlanır, elə sahib çıxırdı ki, yer-yerindən ayrılsa da dostlarının təəssübünü kimsəyə verməzdi. Vətəni də bu niyyətlə birinci yerə qoymuşdu. Qorumaq, sahib çıxmaq, keşiyində dayanmaq üçün. Yaman, qədir-qiymət bilən, dostcanlı oğul idi. Dost dediklərinə canını qurban verərdi, özünü fəda edərdi. Dost kimi dost, mərd kimi mərd idi. Əsl dostu, əzəli dostu, əbədi dostu – Vətənə olan məftunluğu isə bütün vətənpərvər oğullar kimi uşaqlıqdan baş qaldırmışdı. Elə sözünün əvvəli-axırı Vətən olandan...

Hələ Culfa rayon Qazançı kəndində üçüncü sinifdə oxuyarkən Heyvagül müəllimənin 13 nəfər şagirdə ünvanladığı “Sinifdə kim hərbçi olacaq?” sualını ayağa qalxaraq, “Vəli Quliyev olacaq”, – deyərək cavablandırması sinfi sükuta qərq edir. Bütün nəzərlər ona dikilir. Şagirdlərin gözündə çox böyüyür. 9 yaşlı çəlimsiz vücudu ilə ayağa qalxsa da, cavabını böyük, qəhrəman bir igid kimi, öz adını xitab edərək özünəməxsus şəkildə, gələcəyin əsl döyüşçüsü kimi verir. Qüvvətli, qeyrətli obrazını 9 yaşı ilə gözlər önünə qoyur. Çünki cəsarət adlı keyfiyyət belə oğulların qanına, canına elə uşaqlıqdan hopur, kök salır, yuva qurur. Onlarla dil tapıb, dost olur. Atasından ağlayaraq istədiyi əsgər paltarı, oyuncaq silahlar ilə bu sevginin ilk təməl daşları idi. Və uşaqlıqdan əsl dostu, ən sadiq dostu hesab etdiyi Vətənə olan sonsuz sevgisi, beləcə, özünü büruzə verir. Dediyi kimi də olur. Vəli Quliyev hərbçi olur, özü də əsl hərbçi... Səmimi komandir... Hər kəsə əl tutan, yardımsevər... Başçılıq etdiyi əsgərlərinə qardaş münasibəti bəsləyən, qayğılarını çəkən, ehtiyacı olana yardım edən... Bir gün evlərində qonaq olan dostlarından biri Vəlinin anasına deyir: – Həqiqət ana, sən bu oğlunu bir az yığ. Camaat səhv başa düşür. Deyirlər, bəlkə, siz çox imkanlısınız, var-dövlətin içində üzürsünüz. Aldığı əməkhaqqını dircə xərcləyir. Deyirəm, bir qəpik at dala, deyir, yox, qoy kiminsə qəlbində nisgili qalmasın. Əlimdən gələn yaxşılığı edəcəyəm. Onların duası mənə bəsdir. Münasibəti olmadığı, bircə dəfə salamlaşdığı adamlara da kömək edir. Stolun o biri başında oturan Vəli gülür: – Ana, sən ona fikir vermə. Danışır özü üçün. Niyə tanımıram? Hamısını da tanıyıram. Əsgərlərim mənim övladlarımdır, Vətənimin oğullarıdır. Deyib-gülən Vəli sözünü elə səlis, ürəklə deyərdi ki, həmin söz səhv də olsa, arxasınca inkar etməyə nə kiminsə ürəyi gələrdi, nə də ki üzü. Onun ürəklə dediyi sözə “qıymağa” heç cəhd də etməzdilər. Dostları ilə yığışanda o qədər deyib-gülərdi ki... Təsadüfmü ya seçimmi, ən yaxın dostları da hərbçi idi. Fərmin Əliyev (ondan əvvəl şəhidlik məqamına yüksəlib), Elmir Paşayev (hazırda yaralıdır).

İki ilə yaxın idi ki, sərhəd bölgəsində Beyləqan Korpusunun Ağcabədi “N” hərbi hissəsində əvvəllər taqım komandiri, 5 aya yaxın isə bölük komandiri işləmişdi. Özü sərhəd bölgəsini seçmişdi. Postuna da necə dəyər verirdi, evi kimi necə can yandırırdı, onu ağcabədililər daha yaxşı bilir. 5 ay idi ki, kirayə etdiyi mənzildən çıxıb elə postda qalırdı. Deyirdi evim buradır. Sərhədçinin evi post olar.

27 sentyabr səhəri erməni hissələrinin Tovuz istiqamətindəki dinc əhalini artilleriyalardan, iriçaplı pulemyotlardan atəşə tutması xəbəri ilə açılır. Həmin vaxt silahına sarılan Vəli öz bölüyü ilə döyüş bölgələrində idi. Adəti üzrə “Dost dosta tən gərək, tən olmasa, gen gərək”, – deyərək bölüyünü yığır başına. Dilində bir söz vardı: “Ya Qarabağ, ya ölüm!” Bu sözlə uşaqların da hamısını döyüşə ruhlandırırdı. Canından artıq sevdiyi Vətənini müdafiəyə bu cür səsləyirdi. 44 günlük müharibənin ilk saatlarından etibarən Vəli və bölüyü dayanmadan vuruşur, irəli gedir. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan istiqamətlərində gedən döyüşlərdə işğaldan azad olan torpaqlarımızda naxçıvanlı aslanlar bölüyün imzalarını hər yerə yazır. Müharibədə yorulmaq, yuxusuz qalmaq, islanmaq, soyuqdan donmaq kimi bütün çətinliklər olur. Vəli bu çətinliyi elə məharətlə yumşaldır ki, döyüşçülərin gileylənmək heç yadına da düşmür. Əksinə, bir-birinə dəstək olurlar. Oktyabrın 20-si 73 nəfərlik bölüyü möhkəm yağışa düşüb islanır, neçə günün aramsız döyüşləri, yuxusuz gecələri də döyüşçüləri haldan saldığı üçün bir neçə saatlıq yerlərini başqa bölüklə əvəzləyirlər. Geri dönüb, əyin-başlarını dəyişib bir-iki saat yuxularını alıb, dincəlirlər. Yadına düşür ki, neçə gündür, evlə əlaqə saxlamayıb, ailə üzvləri indi yaman pərişandır, ən çox da anası. Çətinliklə olsa da, zəng edə bilir anasına. Oğlunun səsini eşidən Həqiqət ana “Alo!” dəməmiş köks ötürüb sevincindən ağlayır. Neçə gündür, oğlundan xəbər-ətər ala bilməyən ana nə biləydi ki, elə son dəfə eşidir Vəlinin səsini. Vəli deyir: – Ana, ağlama, səsini bu cür eşitmək istəmirəm. Xahiş edirəm, mənim formama hörmətin varsa, ağlama. Neçə gündür, düşmənlə ağır mübarizə məni zəiflətmir, amma sənin tökdüyün göz yaşları əlimi-qolumu qırır, qurban olum, ağlama. Orada da şəhid analarına çatdır ki, onlar da ağlamasınlar, Vətən sağ olsun! Şəhidlik ən gözəl qismətdir. Çünki ölmürsən, torpaqlaşırsan, Vətənləşirsən! Tez özünü düzəlt, 5 dəqiqəyə təkrar zəng vururam. Gözəl danış, ürəkli danış mənimlə. Həqiqət ana gözünün yaşını silir və 5 dəqiqə içində özünü ələ alır oğlu ilə xoş danışmaq üçün. İkinci dəfə anası onu istədiyi kimi danışdırır. Deyir bax ana, inşallah, buraları bu mənfurlardan təmizləyərik, çox az qalıb, məni xoş sima ilə qarşılayarsan, bir də ağlama! Nə biləydi ki, bu etirazı, bu üsyanı anasının onun həsrətilə qovrulacaq sonrakı ömrünə həmdəm olacaq.

Danışıqdan sonra – oktyabr ayının 21-i Qubadlı istiqamətinə getmək üçün yola düşürlər. Həmin günü ermənilər postlarını gücləndirir. Vəligilin yol getdiyi “Maz” markalı maşına bomba atırlar, Vəli bir qrup heyət ilə birlikdə maşından atılıb, canını güc-bəla ilə qurtarır. Həmin heyətdən 9 nəfər şəhid olur. Çox keçmir, 2-3 saatın içində qızğın döyüş başlayır. Ermənilərlə, təqribən, 30 metr məsafədə... Onlar səngərdə, bizim döyüşçülər isə ortada mühasirəyə düşmüş vəziyyətdə... Topların səsindən qulaq tutulur. Yağış kimi mərmilər yağır hər tərəfdən. Yanında Asim İbrahimovun güllə yarası alıb yerindəcə keçindiyini görən Vəli çox qəzəblənir, dostu Fərmin Əliyevin şəhid olması yadına düşür. Başını qaldırıb silahını çəkəndə onu da nişan alırlar. Yanındakı əsgəri Elnur Məmmədli özünü atır komandirinin üzərinə ki, onu qorusun. Çox tələsirlər: – Nə edək, komandir, sizi çıxarım buradan, bəlkə? Hə, çıxarım, qoymaram nə isə olsun. Vəli qaşlarını çatıb deyir: yox, durmaq, getmək olmaz. Çəkilməyin, bu, bir göstərişdir. İrəli gedin. Bir-birinizdən də müğayat olun. Elə o anda ikinci güllə ilə gözlərini əbədilik yumur. Elnur onu 3-4 metr kənara çəksə də, baxır ki, nəbzi dayanıb. Artıq Vəlidən qalan silahı, bıçağı bir də cansız bədənidir. Həmin əməliyyatdan, sadəcə, üç nəfər sağ qalır. Vəlinin qəhrəmanlığı zəfərin ön sıralarında səslənir.

Naxçıvan yurdu onu döyüş bölgəsinə bir hərbçi leytenant kimi göndərsə də, əsl generala layiq iftixar, qürur və fəxarətlə qarşıladı. Vəli Quliyev nəinki qəhrəman bir hərbçi oldu, o, naxçıvanlı balasına yaraşan şəkildə, Qarabağ əfsanəsinə çevrildi. “Naxçıvan canavarı” simvolunun daşıyıcısı, II Qarabağ savaşının igid qəhrəmanı Vətən torpağının qoynuna şəhid kimi köçdü, sevdiyi Vətən naminə. Bu elə bir sevgi idi ki, sədaqətini bütün dünyaya göstərdi. Dostluğunu tarixə yazdırdı, yaddaşlara həkk etdi ölümsüzləşən adını. Tarix də bu dostluğa sədaqət rəmzinə sahib çıxıb, Vətən sevgisini əbədiləşdirən leytenant Vəli Quliyevin mübarək imzasını daimi olaraq özündə saxladı.

**Türkan HÜSEYNLİ**

---

*“Naxçıvan” Universitetində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən italyan yazıçısı Nikolo Makiavellinin “Hökmdar” əsərinin müzakirəsi keçirilib.*

## “Hökmdar” əsərinin müzakirəsi aparılıb



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva bildirib ki, müvafiq sərəncam üzrə müzakirəsi keçirilən kitablar gənc nəslin dünyagörüşünün zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, intellektual səviyyələrinin yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Sonra universitet kitabxanasının müdiri Zamin Babazadənin, tələbələrdən İmmi Orucovanın, Sevinc İsmayılzadənin və Kənan Quliyevin kitabla bağlı məruzələri dinlənilib.

Bildirilib ki, XV əsrdə qələmə alınan, 26 fəsildən ibarət olan “Hökmdar” əsəri bütün dövrlərin və bütün xalqların siyasətçiləri üçün əsl dərs vəsaiti olub. Əsər dərin ideya və fikirlərə görə dünya mədəniyyət xəzinəsinə daxil edilib. Makiavelli sözügedən əsərdə səxavət və qənaət, qəddarlıq və mərhəmət, məhəbbət və nifrət, habelə digər bu kimi anlayışları diqqətlə təhlil edib.

**Seyfur HACIMURADOV**

---

## Səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb

Bu gün ölkəmizdə şəhid ailələrinə, müharibə iştirakçılarına və sağlamlıq imkanları məhdud şəxslərə hərtərəfli dövlət qayğısı göstərilir. Ölkə Prezidenti tərəfindən bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir, müvafiq kateqoriyadan olan insanlara mənzil və minik avtomobilləri verilir, onlar müalicələrə göndərilir və sağlamlıqlarının qayğısına qalınır. Xüsusi qayğıya ehtiyacı olan şəxslərin reabilitasiyası, onlara sosial xidmətlərin göstərilməsi, təhsili, məşğulluğu və yaradıcılıq potensiallarının aşkar edilməsi diqqət mərkəzində saxlanılır.

Bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb.

Komissiya şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılmasını, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təminatını, sağlamlıq imkanları məhdudluq dərəcəsi təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanmasını və digər xidmətlərin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək və ortaya çıxan problemlərin həllini diqqət mərkəzində saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

---

## Tələbələr istehsalat təcrübəsi keçirlər



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı hami təşkilatlar ilə təhsil müəssisələri arasında uğurlu əməkdaşlığa nail olunmasına, bununla da muxtar respublikada mütəxəssis kadr hazırlığına öz bəhrəsini verməkdədir.*

Müvafiq sərəncama uyğun olaraq noyabrın 16-dan etibarən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi ixtisasının IV kurs tələbələri Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin aid təşkilatlarında təcrübə keçirlər. Təcrübə zamanı tələbələr üçün məlumatverici stendlər və digər əyani vəsaitlərlə təchiz olunmuş sinif otağı hazırlanıb, burada ictimai nəqliyyat vasitələri sürücülərinin dayanma, durma və parklanma qaydalarına riayət etməsinin təmin olunması, eləcə də avtobuslar üçün dayanacaq məntəqələri və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair tələblər diqqətə çatdırılıb. Təcrübə iştirakçıları şəhərdaxili nəqliyyatda əhaliyə xidmətin hansı üsullarla göstərilməsi, marşrut qrafiklərinin nizamlanması və dispetçer xidmətinin təşkili ilə bağlı geniş informasiya əldə ediblər.

Təcrübə müddətində tələbələr “Taksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyəti ilə də yaxından tanış olublar. Burada sifarişin dəyərinin hesablanması, sifarişlərin sürücülər arasında paylanmasının təşkili, eləcə də elektron taksi xidməti funksiyasını icra edən proqram haqqında tələbələrə ətraflı məlumatlar verilib. Avtobus parkının təmir sexlərində isə sərnişindaşımada işləyən avtobusların təhlükəsiz və rahat idarə olunması üçün gündəlik texniki baxışın keçirilməsi, avtomobillərdə yarana biləcək texniki nasazlığın aradan qaldırılması yolları əyani şəkildə göstərilib. Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində olan tələbələrə avtobusların avtovağzal üzrə hərəkət cədvəllərinə riayət edilməsi, hər bir avtobusun sərnişin tutumundan səmərəli istifadə olunması, hərəkətin tənzimlənməsi, sərnişinlərdə biletlərin olmasına, gedişə və baqajın daşınmasına görə ödənişin düzgünlüyünə nəzarətin həyata keçirilməsi haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, istehsalat təcrübəsi dekabrın 30-dək davam edəcək və qarşıdakı müddətdə də tələbələrin aidiyyəti üzrə praktik fəaliyyətə yiyələnmələri təmin olunacaq.

**Nail ƏSGƏROV**

---

### İtmişdir

Babayev Mirkəlam Mireylas oğlunun adına olan Şərur rayonu, Zeyvə kəndində yerləşən torpaq sahəsinin AA-002203 nömrəli plan və ölçüsü, 0008805 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Danyeri kənd sakini Quliyev Mikayıl İsmayıl oğlunun adına verilmiş JN-911A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 916